AZAD ŞƏRİF

# XX ƏSR AZƏRBAYCANININ YARADICI NƏSİLLƏRİ

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin hədiyyəsi
M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

BAKI - 2007

# MİLLİ BALETİMİZİN BANİSİ



Bədəlbəylilər ailəsinin başçısı görkəmli maarifçi, müsəlman-rus məktəbinin yaradıcısı **Bədəlbəy Bədəlbəyov** ilk milli musiqili teatrın və opera tamaşalarının təşkilində fəal iştirak edib. O, Üzeyir Hacıbəyovun «Leyli və Məcnun» operasında Məcnun və İbn Səlam rollarında çıxış edib.

Azərbaycanın xalq artisti **Əfrasiyab Bədəlbəyli** hələ 5 yaşında olarkən tarda çalmağı bacarırmış. O, I Realnı məktəbini, Teatr və Musiqi peşə məktəbini bitirmişdi. Əfrasiyab Bədəlbəyli ali təhsilini Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsində almışdı.

O, milli musiqi və teatr sənətinin inkişafı, aktyor, musiqiçi və bəstəkarların həyat və fəaliyyəti haqqında 300-dən artıq məqalə, resenziya, oçerk yazıb.

Ə.Bədəlbəyli bəstəkarlıq fəaliyyətinə 1928-ci ildə Cəfər Cabbarlının «Od gəlini» tamaşasına musiqi yazmaqla başlayıb. Sonradan o, «Sevil», «Almas», «Yaşar» və digər tamaşalara musiqi yazıb.

İlk milli baletimiz olan «Qız qalası»nın müəllifi də Əfrasiyab Bədəlbəylidir. Bu tamaşanın premyerası 1940-cı il aprelin 18-də olub. «Xalq qəzəbi», «Nizami», «Söyüdlər ağlamaz» operaları da onun qələmindən çıxıb.

Əfrasiyab Bədəlbəyli «Söyüdlər ağlamaz», «Bahadur və Sona» (bəstəkarı Süleyman Ələsgərov), «Aydın» (bəstəkarı Ramiz Mustafayev) operalarına, «Qız qalası», «Don Kixot» (bəstəkarı



Minkus) baletlərinə, «Qızıl açar» və «Gülən adam» (bəstəkarı Boris Zeydman), «Qaraca qız» (bəstəkarı Əşrəf Abbasov) baletlərinə libretto yazıb.

Ə.Bədəlbəyli yeganə bəstəkar-tərcüməçi olub. Onun tərəfindən «İolanta» (bəstəkar P.İ.Çaykovski), «Sevilya bərbəri» (bəstəkar D.Rossini), «Daisi» (bəstəkar Z.Poliaşvili) və digər operalar Azərbaycan dilinə tərcümə edilib.

Ə.Bədəlbəyli həm də görkəmli alim-musiqişünas idi. Onun tərəfindən «Musiqi haqqında söhbət», «Qurban Pirimov», «Azərbaycan Dövlət Opera və Balet Teatrı» kitabları nəşr olunmuşdu. Ə. Bədəlbəyli Respublika Teleradiosunda «Mədəniyyət Universiteti»nin yaradıcısı və o silsilədən olan parlaq verilişlərin aparıcısı olub. 1969-cu ildə bəstəkar tərəfindən nəşr edilən «İzahlı monoqrafik musiqi lüğəti» kitabının musiqişünaslıqda xüsusi yeri var. Musiqinin tarixini və nəzəriyyəsini tədqiq edən əksər alimlərin fikrincə bu nəşr indinin özündə də onların stolüstü kitabıdır.

Ə.Bədəlbəylinin qardaşı, Azərbaycanın xalq artisti **Şəmsi Bədəlbəyli** 1927-ci ildə Azərbaycan Dövlət Konservatoriyasına daxil olub. Burada o, Üzeyir Hacıbəyovun sinfində bəstəkarlıq nəzəriyyəsi ixtisası üzrə təhsil alıb.

Üzeyir Hacıbəyovla ünsiyyət, Cəfər Cabbarlı ilə dostluq münasibətləri onun taleyində həyati əhəmiyyətli rol oynayıb.

1932-ci ildən etibarən isə Ş.Bədəlbəyli özünü rejissor kimi sınayaraq, A.Tuqanov, İ.Hidayətzadə və R.Təhmasibə assistentlik etməyə başlayıb.

1934-cü ildə Ş.Bədəlbəylini Moskvaya göndərirlər. Burada o, «Malıy Teatr»da rejissor kimi təcrübə keçir.

1938-ci ildən etibarən isə Azərbaycan Dram Teatrında müstəqil surətdə rejissorluq fəaliyyətinə başlayır. Burada C.Məmmədquluzadənin «Ölülər», S.Rəhmanın «Xoşbəxtlər», C.Cabbarlının «Od gəlini» əsərləri onun tərəfindən böyük müvəffəqiyyətlə səhnələşdirilir.

Böyük Vətən müharibəsi illərində Ş.Bədəlbəyli sovet qoşunlarının tərkibində İrana ezam olunur. Burada o, fəaliyyətini davam etdirərək, Təbrizdə Üzeyir Hacıbəyovun «Arşın mal alan» operettasını səhnələşdirir. O, Təbrizdə «Qırmızı Şərq» qəzetinin müxbiri kimi də fəaliyyət göstərir.

Şəmsi Bədəlbəyli uzun illər Azərbaycan Dövlət Musiqili Komediya Teatrının direktoru və bədii rəhbəri olub. Bu teatrda onun tərəfindən çoxlu sayda operetta və musiqili komediyalar səhnələşdi-





rilib. Qeyd edim ki, Ş.Bədəlbəylinin quruluş verdiyi hər bir əsər Azərbaycanın teatr sənəti tarixində əlamətdar hadisəyə çevrilirdi. O «Hicran», «Dünya», «Ulduz», «Arşın mal alan» və digər əsərlərə bu teatrda quruluş vermişdi.

Ş.Bədəlbəyli bir neçə il filarmoniyaya da rəhbərlik edib.

Onun bu musiqi ocağına rəhbərlik etdiyi illər ərzində simfonik orkestr, mahnı və rəqs ansamblı, xalq çalğı alətləri orkestri ifaçılıq səviyyəsində əhəmiyyətli yüksəliş əldə etmişdi. Həmin dövrdə dünya şöhrətli musiqiçilər Bakıya qastrol səfərlərinə gələrdilər.

1959-1965-ci illərdə Şəmçi Bədəlbəyli Opera Teatrının direktoru və baş rejissoru vəzifələrində çalışıb. Bu teatrın səhnəsində onun tərəfindən «Koroğlu», «Durnalar gölü», «Traviata», «Trubadur» və digər əsərlər səhnələşdirilmişdi.

1976-cı ildən ömrünün sonunadək Şəmsi Bədəlbəyli Azərbaycan Teatr Cəmiyyətinin sədri olub.

Ş.Bədəlbəyli həm də bədii filmlərdə çəkilib. Düzdür, elə də böyük rollarda oynamasa da, o, öz ifası ilə xarakterik, yaddaqalan obrazlar yaradıb. Onun iştirak etdiyi «O qızı tapın», «Axırıncı aşırım», «Ömrün səhifələri» filmləri Azərbaycan kinematoqrafiyasının qızıl fonduna daxil olub.

**SSRİ xalq artisti, Azərbaycan Dövlət mükafatı laureatı Fərhad Bədəlbəyli** Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını fortepiano ixtisası üzrə bitirib. Sonradan P.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının aspiranturasında həmyerlimiz professor B.Davidoviçin sinfində təhsilini davam etdirib.

F.Bədəlbəyli beynəlxalq müsabiqənin laureatı olmuş ilk azərbaycanlı pianoçudur. O, 1967-ci ildə Çexoslavakiyada keçirilən beynəlxalq müsabiqədə B.Smetananın əsərlərinin ən yaxşı ifaçısı kimi xüsusi mükafata və laureat kimi 3-cü mükafata layiq görülüb.

1968-ci ildə isə Fərhad Portuqaliyanın paytaxtı Lissabon şəhərində keçirilən Viana da Mota adına Beynəlxalq müsabiqənin qalibi olub.

Fərhad Bədəlbəylinin fəaliyyətinin bir qolu da musiqi-təşkilatçılıq və maarifçilik işi ilə bağlıdır. 1986-cı ildə F.Bədəlbəyli tərəfindən Musiqi Xadimləri İttifaqı yaradılıb. 1987-1996-cı illər arasında isə o, elə özü tərəfindən yaradılan Bakı İncəsənət Mərkəzinə rəhbərlik edib. Professor Fərhad Bədəlbəyli 1991-ci ildən Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına rəhbərlik edir.